prosesdir. Hər bir qarşıya çıxa biləcək innovasiya potensialı, istənilən sahə üzrə ortaya çıxan fürsətlər, eləcə də mövcud potensial imkanların səmərəliliyinin artırılması mükəmməl öyrənmə ilə yanaşı, təcrübəyə əsaslanan tədqiqat işlərini tələb edir.

Qloballaşan dünyada innovasiya texnologiyalarının, xüsusən də innovativ sahibkarlığın inkişafında xarici iqtisadi əlaqələrin mühüm rol oynadığını xüsusi vurğulamaq lazımdır. Çünki, məhz xarici-iqtisadi əlaqələr innovativ texnologiyaların mübadiləsinin intensiv xarakter almasına təsir göstərir. Bu onunla əlaqədardır ki, xarici iqtisadi fəaliyyətdə yeni nailiyyətlərin, elmi-texniki ideyaların xarici kapitalın mübadiləsinə üstülük verilir və innovativ biznesin inkişafına xüsusi diqqət yetirilir.

**Ədəbiyyat:**

1. A. Bayramov. Biznes və menecmentin əsasları. Bakı, 2011.
2. Biznesin təşkili və idarə edilməsi. Bakı, 2011.
3. İ. Qasımov, F. Cəbiyev. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı, 2017.

## SAHIBKARLIĞIN GENDER PROBLEMI

*Hüseynova E. Yə., İqtisad elmləri namizədi, dosent*
*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*

Azərbaycanda qadınların özəl sektorda bərabər iştirakını dəstəkləyən bir sıra əsas amillər mövcuddur. Milli qanunvericilik qadın və kişilərin iqtisadi resurslara bərabər çıxışını təmin etmək üçün güclü hüquqi təmələ malikdir. Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericilik bazası qadınlara mülkiyyətə yiyələnmək və bütün növ iqtisadi fəaliyyətlərlə məşğul olmaq üçün kişilərlə bərabər hüquqlar verir.

Qanunvericilikdə sahibkarlıq fəaliyyəti sahəsində qadınlar üçün hər hansı məhdudiyyət nəzərdə tutlmur, eyni zamanda qadınlara münasibətdə xüsusi güzəşt və imtiyazlar da müəyyənləşdirilmir. Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatından tutmuş, lisenziya və icazələrin verilməsi, vergi öhdəlikləri, yoxlamaların aparılması, pozulmuş hüquqların bərpası və s. kimi məsələlərdə heç bir cins fərqi və üstünlüyü müəyyənləşdirilmədən sahibkarlıq subyektləri öz hüquqlarını həyata keçirməkdə bərabər imkanlara malikdirlər.

Azərbaycan qadını üçün səciyyəvi olan təhsil nailiyyətlərinin və işçi qüvvəsində iştirakın yüksək səviyyəsi güclü potensiala malik qadın işçi qüvvəsi yaradır. Ölkədə özəl sektorun daha yaxşı inkişaf etməsi üçün qadın işçi qüvvəsinin tam potensialına nail olmaq Azərbaycanın milli inkişaf strategiyasının (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi) qarşısında duran əsas vəzifələrdən biridir. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə strateji hədəflərdən biri kimi qadın sahibkarlığının inkişaf etdirilməsi öz əksini tapmışdır.

Müasir iqtisadiyyatda qadın sahibkarlığı kiçik və orta sahibkarlığın (KOS)

daha dinamik hissəsini təşkil edir. Statistik məlumatlara görə dünyada yeni biznes-strukturların 25 faizdən çoxunu qadınlar yaratmışdır. Fransa və Böyük Britaniyada bütün firmaların dörddə birinə, Almaniyada üçdə birinə qadınlar rəhbərlik edir. Yaponiyada bu rəqəm 23 faiz, ABŞ-da 38 faizdir. Ümumi tendensiya inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qadınların iqtisadi təşəbbüskarlığının artmaqda olduğunu göstərir.

Azərbaycanda da qadınların iqtisadi təşəbbüskarlığının artması, onların KOS-da geniş təmsilçiliyi sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanda qadınlar əhalinin 50,1 faizini təşkil edir. Əmək qabiliyyətli qadınların 70 faizə qədəri özəl sektorda 30 faizə qədəri isə dövlət sektorunda çalışır. Özəl sektorda çalışanların 5 faizinə qədərin öz şəxsi biznesi vardır. İqtisadiyyatın və sosial sahələr üzrə idarəetmə strukturlarında çalışan qadınlar 35 faiz təşkil edir. Bizneslə məşğul olan qadınlar əsasən mikro və kiçik müəssisələrdə fəaliyyət göstərirlər. Qeydə alınmış kiçik, özəl müəssisələrdə qadınlar 7 faiz təşkil etdikləri halda, onlar əmək resurslarının 49 faizini təşkil edirlər.

Ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınların sayına nisbətən bir qədər çox olmuşdur. Belə ki, məşğul əhalinin 48,2 faizini və işsiz əhalinin 57,5 faizini qadınlar təşkil etmişdir. İqtisadi fəal əhalinin 48,9 faizi isə qadındır. Qadınlar daha çox təhsil, səhiyyə və incəsənət sahələrində təmsil olunurlar. Təhsil sahəsində çalışanların 73,3 faizini, səhiyyə və sosial xidmətlər sahəsində çalışanların 77,6 faizini, istirahət, əyləncə və incəsənət sahəsində çalışanların 62,0 faizini qadınlar təşkil etmişdir.

Son illərdə qadınların sahibi olduğu müəssisələrin sayının artdığı müşahidə olunur. Sahibkarlığın və kiçik biznesin inkişafının yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması və məşğulluğun artırılması ahəsində səmərəli vasitə oduğunu nəzərə alsaq, mövcud və potensial qadın sahibkarların inkişaf proseslərindən kənarda qalmadığı təmin edilməlidir. Lakin bütün bunlarla yanaşı, qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olması istiqamətində bir sıra maneələr və çətinliklər ortaya çıxır ki, bu da onların iqtisadi fəallığının aşağı düşməsinə gətirib çıxarır. Bu da özəl sektorda qadınların kişilərə nisbətən zəif iştirakı bir neçə səbəblə bağlıdır: ev işi yükünün əksər hallarda qadınların üzərinə düşməsi və ondan yaranan kəskin vaxt qıtlığı, ailəyə dəstək infrastrukturunun ehtiyacları hələ tam ödəməməsi, əmək bazarında qadın və kişilərin imkanlarının bərabər olmaması. Xüsusilə burada işə qəbulda ayrı-seçkilik halları, "qadın işi" və "kişi işi" kimi ənənəvi təsəvvürlər, bəzi icmalarda qadınların ictimai mühitdə fəal olmalarına hələ də davam edən mənfi münasibət daxildir.

Qadınlar özəl sektorda və sahibkarlıq fəaliyyətində uğur qazanmaq üçün sayca daha çox dəstəkləyici faktorlara ehtiyac duyurlar. Bu amillərə ailə dəstəyi, uyğun təhsil imkanları, ev işlərinin bərabər bölüşdürülməsi, ictimai yerlərdə sərbəst hərəkət və işəgötürənlər tərəfindən qadınlara qarşı bərabər və ədalətli münasibət daxildir.

Son illərdə özəl sektorun inkişafını sürətləndirmək üçün dövlət tərəfindən bir çox tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər tənzimləmənin asanlaşdırılmasına və bürokratik maneələrin aradan qaldırılmasına kömək edib. Məsələn, dövlət qurumlarına çıxışı asanlaşdırmaq, şəffaf prosedurlar yaratmaq və bizneslər üçün daha

sürətli sənədləşdirmə üsulları təqdim etmək üçün bizneslər üçün “bir pəncərə” prinsipi çərçivəsində elektron xidmətlərdə elektron eyniləşdirmə (ASAN İmza) istifadə edilməyə başlandı və biznes yoxlamalarına hökumət tərəfindən moratorium qoyuldu.

Azərbaycanın yüksək potensiallı insan kapitalına əsaslanan inkişaf modelinə keçməsi (Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində göstərildiyi kimi) üçün özəl sektor iqtisadiyyatında qadınların mövqeləri gücləndirilməlidir. Bu qlobal tendensiyanı əks etdirir: McKinsey Global İnstitutunun araşdırmalarına əsasən, qadınların iqtisadi sektorda kişilərlə bərabər iştirakı 2025-ci ilədək qlobal ÜDM-ə 28 trilyon dollara qədər (və ya 26%) əlavə gəlir gətirə bilər.

**Ədəbiyyat:**


1. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı. 2006

2.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi .Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

4. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı .Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.


## PUL HESABLAŞMALARI VƏ ONUN PRİNSİPLƏRİ


*Kərimova Mehriban Allahverən qızı*

*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Pul dövriyyəsinin tərkib hissələri olan nağd və nağdsız pul dövriyyəsi arasında kəskin hədd qoymaq olmaz. Dövriyyədə onlar bir-birindən əsasən nağd pulların iştirakına görə fərqlənsələr də bir-biri ilə sıx əlaqədədirlər. Bu əlaqə zamanı pulların nağdsız dövriyyədən nağd dövriyyəyə və əksinə çevrilməsi prosesi yaranır. Pulun belə hərəkəti pul dövriyyəsinin bütövlüyünü göstərir. Görülmüş iş və göstərilmiş xidmətlərin dəyəri, mal-material qiymətlilərinin satışı nağdsız ödənilməsi zamanı müəssisənin bankdakı hesabına daxil olan nağdsız vəsaiti istehsal işçilərinin əməyinin ödənilməsinə yönəldikdə və s. hallarda nağd pula çevrilir. Nağd dövriyyənin nağdsız dövriyyəyə çevrilməsi prosesi isə nağd pulla əhaliyə satılmış malların, əhaliyə göstərilmiş pullu xidmətlərin dəyərinin, mənzil-kommunal xərclərinin ödənilməsi və s. zamanı baş verir. Göstərilən yollarla müəssisənin kassasına daxil olan nağd pul vəsaitləri müəssisənin hesabına daxil edilmək üçün banka verilir. Müəssisənin hesabına daxil olan həmin nağd pullar, nağdsız hesablaşmaların aparılmasına zəmin yaradır və nağdsız hesablaşmaları apamıaq üçün istifadə olunur. Nağdsız hesablaşmalar sistemi sənəd dövriyyəsində istifadə olunan hesablaşma prinsipləri,